UOT 39

İSRAİL ƏMİRLİ
Bakı Dövlət Universiteti,
Asiya və Afrika ölkələri tarixi kafedrasının müəllimi
amirovisrail04@gmail.com

AİLƏNİN ƏSASLARI

DOI: https://doi.org/10.36719/2708-065X/112/218-221

Xalqın əsasını ailələr təşkil edir. Hər bir dövlət də ailələrin üzərində dayanır. Ailələr tez-tez qurulur və bunun nəticəsində yeni kollektivlər yaranır və böyüyür. Bu subyektlər öz özlüyündə həm də kiçik dövlətlərdir. Bu dövlətlər həlqəvi formada bir birinə daxildirlər. Yəni ailə, qəbilə və tayfa ailəsinə, o isə öz-özlüyündə xalqın tərkib hissələrini təşkil edir. Xalq isə daha böyük ailə millət və dövlət ailəsinə daxil olur.

Açar sözlər: Ailə, qəbilə və tayfa, xalq, millət, dövlət.

Giriş. Ailə kiçik qrupdur. Ailələr qan qohumluğuna və nigaha əsasən təşkil olunur. Müasir ailə tərkibi 4-5 nəfərdən təşkil olunur ki, bu da həm kənd əhalisi üçün, həm də şəhər əhalisi üçün doğru seçim deyildir. 1990-cı ilə qədər Azərbaycan ailələrində 5 uşaq olduğu halda, bundan sonrakı dövrdə uşaqların sayı ikiyə enmişdir. Bu da öz növbəsində kəndlərin boşalmasına, məktəblərin bağlanmasına bununla yanaşı şəhər əhalisinin də çoxalmamasına səbəb olmuşdur. Bunun nəticəsində infrastruktur əlaqələri sıradan çıxmışdır.

Ailənin əsasları. "Семя и ее история" adlı məqalədə bildirilir ki, ailənin necə və nə vaxt yaranması məsələsi, tarixçilər, arxeoloqlar, paleoantropoloqlar, genetiklər və primatoloqlar kimi geniş sahələrdən olan alimlərin birgə həll etməyə çalışdıqları əsas elmi problemdir. Onların işi sayəsində indi bilirik ki, ailə çox qədim bir sosial institutdur. O, dindən, dövlətdən, ordudan, təhsildən və bazardan çox əvvəl yaranmışdır. Ailə ibtidai icma sistemi kontekstində yaranmış və nikah və qohumluq əlaqələrinin inkişafı ilə tədricən dəyişmişdir. Ailə münasibətlərinin ən erkən prototipləri artıq ən erkən insanların əcdadları olan fosil primatlarda mövcud idi (1). Ailələrin yaranması və inkişafı sonrakı dönəmlərdə dövlətlərin də yaranmasına səbəb oldu. Məhz dövlət ailələri qorumaq üçün lazım idi. Çünki xarici yad elçilər ailələri qarət etmək üçün hücumlar edirdilər. Bunun nəticəsində ailələr birləşdi və dövlət yaratdılar.

İsrail Əmirli "Formasiyalararası fərq" kitabında yazır, tayfa və qəbilələr ailə icması xarakterində fəaliyyət göstərirdilər. Planetin müxtəlif istiqamətlərində bu formada fəaliyyət göstərərən tayfa, qəbilə icmasının böyük təsərrüfatı, həm də ayrı-ayrı ailələrin xırda təsərrüfatı şəklində bölünürdü. Ancaq daha böyük qəbilə və tayfalarda yaşamağın üstünlüyü qəbilə və tayfa ittifaqlarının yaranmasına şərait yaratdı. Eyni soydan olan qəbilə və tayfa ittifaqlarının birləşməsi nəticəsində xalq, fərqli qəbilə və tayfa ittifaqlarının birləşməsi nəticəsində millət yaranırdı (2, s.25).

Ailə kollektiv birlik forması nümunələrindən biridir. Ailə birgə yaşam formasıdır. Selvinaz Çinar Parlak öz məqaləsində yazır ki, Ailə bir-birinə qan, hüquqi və emosional bağlarla bağlı olan insanlardan ibarət ən kiçik sosial vahiddir. O, yazır ki, müasir cəmiyyətlərdə ailələr nikah yolu ilə qurulur.(3) Lakin burada bir məsələni qeyd etmək lazımdır ki, insanların anadan olduğu birlik ailədir. İnsanın daxil olduğu qəbilə və tayfa da ailənin növlərindən hesab olunmalıdır. Nigaha daxil olduğu ailənin üzvləri də ailə hesab olunmalıdır.

Bir amili qeyd etmək lazımdır ki, oğlan övladı və qız övladının nigahla daxil olduğu ailələr də bu zaman birləşirlər . Bunun nəticəsində üç ailə qohum olurlar. Məqalədə göstərilir ki, ailə, uşaq sahibi olmağa və bu uşaqları böyütməyə əsaslanan bir qrup olaraq təyin olunur (4). Həmçinin qeyd edilir ki, ailə həm də uşağın ilk müəllimidir. Uşaq ailədə ən əsas dəyərləri və fəzilətləri öyrənir. Uşaq nəinki akademik təməlini ailədə başlayır, həm də mənəvi tərbiyəsini alır. Ailə ilk növbədə hörmət, xeyirxahlıq, dürüstlük anlayışlarını öyrədir. Ailədə uşaqlar bilir ki, valideynləri onun əsas qayğıkeşləridir (5).

Ailədə hər kəsin öz statusu var. Ailə üzvləri baba, nənə, ata, ana, oğlan övladları və qız övladlarından ibarətdir. Ailədə hər kəsin vəzifəsi var. Ailəni qoruyan ata və anadır. Onlar ailə başçılarıdır.

Başqa şəkildə qeyd etsək ailənin xoşbəxtliyi ata və ananın əlindədir. Onlar öz ailələlərindən xoşbəxt və bədbəxt ailə forması yarada bilərlər. Ata və ananın vəzifələri işləmək birgə fəaliyyət göstərməkdən ibarətdir. Qadının ailədə statusu öz övladlarına yemək bişirmək, onların səliqəsinə nəzarət etmək, övladlarının qayğısını çəkməkdən ibarətdir.

Ailənin statusuna birdə ailə daxili yaş qrupları daxildir. Ailədə yaş qruplarının dövrləşməsi 1-5 yaş körpəlik, 5-12 yaş uşaqlıq, 12-17 yaş yeniyetməlik, 17-29 yaş gənclik, 30-70 yaş cavanlıq, 70-80 yaş qocalıq, 80-100 yaş və daha sonrası ahıllıq hesab oluna bilər. Körpəlik, uşaqlıq, yeniyetməlik dövründə övladlar tamamilə ata və ananın himayəsində olmalıdırlar. Onların vəzifələri bu dövrdə oxumaq və öyrənməkdir. Onlar ibtidai və sonrakı dövrdə məktəblərdə universal təhsil almalıdırlar.

Vəzifə statusuna görə insanların ən çətin dövrü gənclik dövrüdür. Gənclik dövründə övladlar sənət qazanmalı universitetlərdə təhsil almalı, əlavə dil öyrənməli, ailə qurmalı, ev sahibi olmalı, iş sahibi olmalıdırlar. Sonrakı yaş dövrlərində də insanlar bunları edə bilərlər. Ancaq uğurlu seçim gənclik dövrüdür. 18 yaşında ailə quran gənclər 36 yaşında baba və nənə ola bilərlər.

Bəzən ailələlərdə uşaqlar kiçik yaşlarından təhsillə bərabər sənət də qazanırlar ki, bu da daha uğurlu formadır. Bütün bu dövrdə ata və ananın vəzifəsi övladlarına dəstək olmaqdan ibarətdir.

Ailə həm də digər mənada daha böyük məfhumdur. Hər bir ailə başçıları (kişi və qadın) öz ailəsi ilə birlikdə, həm də digər ailələrin üzvüdürlər. Onların da ata və anası, baba və nənələri, qardaş və bacıları vardır. Bu şəxslər əmilər, dayılar, xalalar, bibilərdirlər ki, onlar da ailənin üzvləridir. Buradan bu nəticəni çıxarmaq olar ki, qəbilə və tayfalara aid olan şəxslər də ailənin üzvləridirlər.

Qəbilə və tayfalar eyni soyadı daşıyırlar. Qəbilə kiçik, tayfa isə böyük ailə formasıdır. Qəbilə və tayfalar evlilklər nəticəsində daha da yaxınlaşırlar. Qəbilə və tayfaların bölünməsindən və ya birləşməsindən yeni qəbilə və tayfalar yaranır. Lakin bu ailələr də daimi deyildir. Kəntlərdə və ya şəhərlərdə yaşayan ailə üzvləri evliliklər nəticəsində bölünür və müxtəlif istiqamətlərdə yaşayırlar. Ailənin zamanla bölünməsi nəvə, nəticə, kötükcə, yadıyca şəklində baş verir. Buna səbəb olan amil kəntlər və şəhərlərdir. Səlcuqlu, Hülakü, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi və s kimi ailələrin yox olmasına kəndlər və şəhərlər səbəb olmuşdur.

İsrail Əmirli öz məqaləsində yazıb, XX əsrdə dünya ölkələrində pasportlaşma prosesi baş tutduqdan sonra, qəbilə və tayfaların mövcudluğu daha bariz surətdə meydana çıxdı. Ancaq burada bir amil qaçılmaz hal oldu ki, obalarda qəbilə və tayfaların mövcudluğu qorunsada kəndlərdə və şəhərlərdə qəbilə və tayfalar dağılmağa məruz qalırlar. Buna səbəb olan amillər içərisində qəbilə və tayfa nümayəndələrinin müxtəlif ərazilərdə yerləşməsi, o cümlədən nəsillərin dəyişməsi şərait yaradır. Buradan çıxarış edərək bir amili xüsusi qeyd etmək lazımdır ki, həm kəndlərdə, həm də şəhərlərdə bu gün mövcud olan qəbilə və tayfa münasibətləri daimi deyil bir neçə nəsili əhatə etməkdədir. Qəbilə və tayfaların dağılmasına səbəb olan digər bir amil isə miqrasiya problemlərinin mövcud olmasıdır. Kütləvi miqrasiyalar nəticəsində müxtəlif regionlara dağılan qəbilə və tayfa üzvləri zaman keçdikcə aralı düşmüş bunun nəticəsində qəbilə və tayfaların kompakt şəkildə mövcud olmaması onların süqutuna səbəb olmuşdur.

Hazırda da kəndlərdə və şəhərlərdə, qəbilə və tayfaların birgə yaşamamsı bu ailə institunun dağılmasına, bununla bərabər yeni qəbilə və tayfaların da yaranmasına səbəb olmaqdadır. Buradan çıxarış edərək bir amili xüsusi qeyd etmək lazımdır ki, həm kəndlərdə, həm də şəhərlərdə bu gün mövcud olan qəbilə və tayfa münasibətləri daimi deyil bir neçə nəsili əhatə etməkdədir. Ancaq kəntlərdə qəbilə və tayfalar kompakt yaşadıqda dağılmağa məruz qalmırlar. Oturaq, köçəri və yarımköçəri tayfalarda bu amil icma və feodalizm dövründə, hətda sonrakı dövrlərdə də bu şəkildə mövcud olmuşdur (6).

Xalqda geniş mənada bir ailədir. Hər bir ailə bölünərək xalqa qarışır. Belə ki, övladlar ailə qurduqdan sonra, müxtəlif istiqamətlərdə yaşayırlar. Onlardan zamanla yeni nəsillər yaranır. Bu nəsillər bölünürlər və dağılırlar. Bu proses son nəticədə xalqın bir ailəyə çevrilməsinə səbəb olur. Buna antropoloji insan quruluşları-baş, bədən quruluşları, qandakı hemoqlobinin miqdarı ilə bir daha sübut etmək olar. Geniş mənada dövlət və millət də bir ailə hesab oluna bilər.

Millət də ailə hesab oluna bilər. Millət eyni dövlətdə yaşayan bir neçə xalqın birlik formasıdır. İsrail Əmirli məqaləsində yazır ki, Vətəndaş ifadəsi etimoloji baxımdan vətəni-adaş olan mənasını əks etdirir (7). Yəni eyni vətənin övladları adlandırılırlar. Onlar eyni dövlət ailəsində yaşayırlar. Dövlət insanlığın əldə etdiyi nailiyətlər içərisində ən mühüm yerə malikdir. İlk dövlətlərin qurulması e.ə.IV min-

illiyə təsadüf edir. Sonrakı dövrlərdə dövlət formalarının müxtəlif növləri meydana çıxmışdır. Bu dövlət formalarının içərisində xalq hakimiyyətini təcəssüm etdirən respublika quruluşlu dövlətlər üstünlük təşkil etməkdədir.

Dövlətlərin yaranması insanların dini, milli, siyasi ehtiyyacların doğurduğu səbəblər ucbatından meydana gəlmişdir. İnsanlar dövlətlərin tərkibində daha təhlükəsiz yaşamış, inkişaf etmiş, siyasi, iqtisadi və mədəni münasibətlərə cəlb olunmuşlar.

Dövlət ölkə vətəndaşlarına müxtəlif sosial hüquqlarının qorunmasına təminat verir. Bunların sırasına mülkiyyət hüququ, azadlıq hüququ, təhlükəsiz yaşamaq hüququ, şəxsi toxunulmazlıq hüququ, mənzil toxunulmazlığı hüququ, nigah hüququ, əmək hüququ, istirahət hüququ, sosial təminat hüququ, təhsil hüququ, şərəf və ləyaqətin müdafiəsi hüququ, fikir və söz azadlığı hüququ, vətəndaşlıq hüququ, seçki hüququ, dövlətin idarə olunmasında iştirak etmək hüququ, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı hüququ və s aiddir (7).

Ailənin hüquqları da ailə əsasları məsələsində mühüm yer tutur. Ailədə valideynlərin hüquqları təbii ki övladlara nisbətdə daha öndə dayanır. Çünki ailə həmdə övladların tərbiyə aldığı kollektivdir. Bu tərbiyə sistemində babanın, nənənin, valideynlərin hər birinin hüquqları vardır. Bu hüquqlar dövlətlər tərəfindən qorunmaqla yanaşı ailə başçıları tərəfindən də qorunmalıdır. Yəni ailədə hər bir şəxsin hüquqları digər şəxslərin hüquqlarının qurtardığı yerdən başlayır. Bu çərçivə sistemində tərbiyə və təlim daha öndə dayanır.

Məqalədə göstərilir ki, müasir dünyada maksimum diqqət ailənin sosiallaşma funksiyasına yönəldilir, valideynlər uşaqlarının sosiallaşma funksiyasına daha çox diqqət yetirirlər. Ailə uşağa normativ davranışı öyrədir və onu sosial normalar, adət-ənənələr və adətlərlə tanış edir. Uşaq cəmiyyətdəki digər insanlarla necə davranacağını öyrənir. Hansı münasibətlərin sosial cəhətdən uyğun olduğunu və cəmiyyət tərəfindən bəyənildiyini müəyyən edir (5).

Nəticə. Məqalədə ailə və onun tərkibi, qəbilə-tayfa ailəsi, xalq ailəsi, millət və dövlət ailələri göstərildi. Ailənin statusu, vəzifələri, hüquqları araşdırıldı və məqalədə ök əksini tapdı. Ailələrin dağılmasının bir neçə forması haqqında bəhs edildi. Son nəticədə xalqın, millətin və dövlətin də bir ailə olması vurğulandı. Ailələrin statusu, ailənin hüquqları, ailə tərkibində yaş qruplarının yeni forması öz əksini tapdı.

ƏDƏBİYYAT

1. Семья и ее история / «Виртуальная школа Тульской области»: [Elektron resurs]. - https://eclass.ipk-tula.ru/mod/book/tool/index.php?id=18395 [08.01.2026].
2. İsrail Əmirli. Formasiyalararası fərq. Bakı, Poliqraf, 2022.
3. Selvinaz Çınar Parlak. Aile Nedir / Aileler Üniversitede: [Elektron resurs]. - https://uskudaraileuniversitesi.com/aile-nedir [08.01.2026].
4. Aile kurumu, 9 s. [Elektron resurs]. - https://adpuquba.edu.az/wp-content/uploads/2020/12/Aile-kurumu.pdf [08.01.2026].
5. Ailə haqqında inşa. - https://insalar.com/aile [08.01.2026].
6. Əmirov İ.C. Şəhərlər və kəndlər qəbilə və tayfaların dağılmasına səbəb olur, 3 s.: [Elektron resurs]. - http://static.bsu.az/w16/K%C9%99ntl%C9%99r%20v%C9%99%20%C5%9E%C9%99h%C9%99rl%C9%99r.pdf [08.01.2026].
7. Əmirov İ.C. Vətəndaş- yoxsa vətəni-adaş: [Elektron resurs]. - http://static.bsu.az/w16/V%C9%99t%C9%99nda%C5%9F_1.PDF [08.01.2026].

ИСРАИЛ АМИРЛИ
Преподаватель кафедры стран Азии и Африки Бакинского государственного университета

ОСНОВЫ СЕМЬИ

Семья – это основа народа. Каждое государство основано на семьях. Часто образуются семьи, в результате чего формируются и растут новые коллективы. Эти образования также яв-

ляются самостоятельными малыми государствами. Эти состояния взаимосвязаны в кольцеобразной форме. То есть семья - это семья рода и племени, которые в свою очередь являются составными частями народа. С другой стороны, народ становится частью большой семьи – нации и государства.

Ключевые слова: Семья, племя и народ, нация, государство.

ISRAEL AMIRLI
Lecturer at the Department of Asian and African Countries of Baku State University

FAMILY BASICS

The basis of the people is formed by families. Every state is based on families. Families are often formed, and as a result, new collectives are created and grow. These subjects are also small states in themselves. These states are included in each other in a circular form. That is, the family is included in the family of the clan and tribe, which in turn are components of the people. And the people are included in the larger family of the nation and the family of the state.

Keywords: Family, tribe and clan, people, nation, state.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 08 yanvar 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Atamoğlan Məmmədli, t.e.d. Əmrah Dadaşov.